TÜRKİYƏ

# "KIZILELMA"nın növbəti uğuru aviasiya tarixinə qızıl hərflərlə yazılıb






(əvvəli 1-ci səhifədə)

Bu test mərhələsi, bir pilotsuz uçuş aparatının avtonom şəkildə, yeni insan müdaxiləsi olmadan start götürməsi və uçuşa keçməsi prosesində uçuş dinamikasının aerodinamik modellərlə uyğunluğunun yoxlanılması məqsədilə həyata keçirilib. Testin əsas komponentləri uçuş zamanı hava axınlarının və təyyarənin reaksiyasının real vaxtda qeyd olunması, süni intellektə əsaslanan idarəetmə sisteminin təlimlənməsi, mərkəzə inteqrasiya olunmuş aerodinamik sensor paketlərinin sınağı, avtonom uçuş zamanı sistemin kritik stabilizasiya parametrlərinin təyin olunmasından ibarətdir. Bu testlər olmadan bir hərbi uçuş aparatının real döyüş şəraitinə daxil edilməsi riskli və qeyri-mümkündür.

"AB Kalkışlı Aerodinamik Testin" uğurla başa çatması Türkiyənin 5-ci nəsil pilotsuz döyüş təyyarəsi texnologiyalarında ABŞ, Çin və Rusiyadan sonra önəmli mövqe qazanmasına, hava döyüşlərində pilotsuz sistemlərdən istifadəyə keçidə öncüllük etməsinə, "TCG ANADOLU" gəmisindəki tam avtonom hava gücünün aktivləşməsinə, "İnsan-mühəndis döyüş dövrü"ndən "Süni intellekt əsaslı müstəqil aviasiya" mərhələsinə keçidinə şərait yaradıb.

Bu, eyni zamanda, hava hücumuna qarşı qabaqlayıcı müdafiə sistemi kimi istifadə edilə biləcək yeni taktiki anlayışların sınaqdan keçirilməsi üçün də mühüm mərhələ sayılır.

Test uçuşu ilə bağlı açıqlama verən **Baykar Texnologiyaları texniki direktoru Selçuk Bayraktar** deyib ki, bu gün "KIZILELMA" ilə yalnız yeni bir uçuş mərhələsini deyil, həm də Türk mühəndisliyinin və gəncliyinin inamının bir mərhələsini uğurla tamamladıq: "Qarşımızdakı dövr, pilotsuz hava güclərinin strateji liderliyinə namizəd olduğumuz bir dövrdür. Sevindirici haldır ki, Baykar 2023-cü ildə müdafiə və aviasiya sektorunda ixracatın üçdə birini, 2024-cü ildə isə sektor ixracının dörddə birini öhdəsinə götürərək Türkiyəni lider mövqeyə qaldırmağı bacardı. Bu gün Bayraktar "KIZILELMA"nın uğurları ilə Türkiyə dünya miqyasında aviasiya və müdafiə texnologiyaları sahəsində öncül olmağa davam edir".

Qeyd edək ki, Bayraktar "KIZILELMA" Türkiyənin ilk döyüş qabiliyyətli PUA-sıdır (pilotsuz uçuş aparatı). Radara görünməz dizaynı, yüksək manevr qabiliyyəti və hava-hava döyüş potensialı, gəmiyə eniş-qalxış bacarığı (TCG ANADOLU), süni intellekt əsaslı uçuş idarəetməsi, üzərində hava-hava və hava-yer raketləri daşıma imkanı, 250+ km/s sürətdə avtonom uçuş və döyüş tapşırıqları yerinə yetirmə imkanı kimi üstünlükləri ilə fərqlənir. Tamamilə Baykar tərəfindən öz resursları ilə hazırlanmış Bayraktar "KIZILELMA"nın sınaq prosesi planlaşdırılan qrafikə uyğun olaraq davam edir.

Bayraktar "KIZILELMA" layihəsi Baykar Texnologiyaları tərəfindən 2021-ci ildən etibarən tamamilə yerli mühəndislərin iştirakı ilə hazırlanıb. Layihənin bütün alt sistemləri, "TUSAŞ","ASELSAN", "ROKETSAN", "HAVELSAN" kimi qurumlarlın əməkdaşlığı ərsəyə gəlib.

Xatırladaq ki, "KIZILELMA"nın ən mühüm üstünlüklərindən biri də dəniz platformaları ilə uyğunluğudur. O, "TCG ANADOLU" amfibiya hücum gəmisindən qalxa və enə bilir. Bu, Türkiyə Hərbi Dəniz Qüvvələrinin aviasiya gücünü okeanlara daşımasına, daşıyıcıya ehtiyac duymadan pilotsuz hava gücünü yerləşdirməsinə, Ağdəniz, Qara dəniz və Orta Asiyada üstün hava nəzarəti təmin etməsinə şərait yaradır.

Beləliklə, Bayraktar "KIZILELMA"nın AB Kalkışlı Aerodinamik Testini uğurla keçməsi, Türkiyənin hərbi aviasiya sektorunda "oyun dəyişdirici" rol oynadığını təsdiqləyir. Bu uğur türk müdafiə sənayesinə beynəlxalq etibar qazandırır, NATO və Türk Dövlətləri Təşkilatı daxilində texnoloji liderliyi gücləndirir və geosiyasi və texnoloji baxımdan "Türk əsri"nin hava məkanında da başladığını göstərir.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**